Ədalət .- 2026.- 9 yanvar (№1).-S.2.

*Aqil ABBAS*

# SİZİN ZƏNG ETDİYİNİZ TELEFONU KÖKÜNDƏN ÇIXARIB ATIBLAR...

***Nömrəni yığıram: 0-822-5-55-77.***
***Cavab:***
**- Sizin aradığınız nömrə təyin edilməmişdir.**
***Ola bilməz axı. Təkrar yığıram.***
***Eyni cavab:***
**- Sizin aradığınız nömrə təyin edilməmişdir.**
***Vallah, ola bilməz. Axı bu mənim ev telefonumdur. Bu telefonla, bu nömrəylə azı min dəfə, iki min dəfə danışmışam. Bu telefona, bu nömrəyə azı min dəfə zəng etmişəm. Necə yəni təyin edilməmişdir? Axı mən elə bu nömrəyə zəng edib demişəm:***
***- Voyeniddən imtahanımdı, atama deyin yüz manat göndərməsə işlər uruscadı. Mən də urus dilin bilmirəm.***
***Elə bu nömrəyə zəng edib demişəm:***
***- Dalaşmışam, məni məktəbdən qovurlar. Kişi özün çatdırsın.***
***Elə bu nömrəyə zəng edib demişəm:***
***- Şahmar Əkbərzadə deyir, atam gəlsin, getsinlər Məmməd Arazgilə.***
***Elə bu nömrəyə zəng edib demişəm:***
***- Könül avariyaya düşüb, gətirirəm, mağar qurun.***
***Bu nömrəyə mənə zəng edib deyiblər:***
***- Anan öldü, gəl.***
***Bəs indi necə olur ki, min dəfə, iki min dəfə zəng elədiyim telefon nömrəsi təyin olunmamış olur.***
***Bir də yığıram. Bir də həmin cavabı eşidirəm:***
**- Sizin aradığınız nömrə təyin edilməmişdir.**
***Heç olmasa desəydi ki:***
**- Sizin aradığınız nömrə şəbəkə xidməti xaricindədi, xahiş edirik bir azdan zəng edəsiniz.**
***Onda həm inandırıcı olardı, həm də bir ürəyim açılardı.***
***Ola bilsin "bir az" lap bir il də çəkə bilər, iki il də çəkə bilər, üç il də. Eybi yox. Amma əvvəl-axır bu "bir az"ın vaxtı qurtarır da.***
***Düzdür, nə qədər ki, ölkədə iqtidar-müxalifət davası gedir, nə qədər ki, iqtidarın içində bir dava, müxalifətin içində bir dava gedir, nə qədər ki, bir balaca ölkədə 70-dən yuxarı partiya millətin başını qarışdırır, 70-dən yuxarı partiya hakimiyyət üstündə bir-birini qırır, bu "bir az" bir az da çox çəkə bilər.***
***Ay başınıza dönüm, ay sizə qurban olum, ay başıma dönəsiniz, ay qurbanım olasınız, axı mən evimizə zəng etmək istəyirəm.***
***Yenə nömrəni yığıram, yenə eyni cavab. Heç bir möcüzə baş verməyəcək.***
***Nə qədər ki, bu ölkə bu gündədi, nə qədər ki, bu ölkənin iqtidarı elə, müxalifəti belədi, nə qədər ki, bu ölkədə hakimiyyət, kreslo, pul davası gedir, nə qədər ki, bu ölkədə milləti bir, beş, səkkiz, doxsan doqquz yerə bölürlər, nə qədər ki, bu ölkədə hətta eyni səngərdə düşmənlə vuruşan və şikəst olan insanları da iki yerə bölürlər, eyni cavabı alacam.***
***Özü də bu cavabı təkcə mən almayacam. Yüz min adam alacaq. Və bu eyni cavabı alan yüz min, yüz əlli min ailənin başçısı da niyə evinə zəng edə bilmədiyi barədə düşünməyəcək. Evinə-eşiyinə getmək haqqında düşünməyəcək, oturub hansısa xeyriyyə təşkilatından 2 kilo un, kiloyarım pesok, 750 qram yağ, 4 dənə də şirniquş gözləyəcək, elə mənim aldığım cavabı alacaq.***
***Yenə yığıram nömrəni, deyəsən mənə cavab verən də artıq hövsələdən çıxır, bu dəfə deyir:***
***- Ay yazıq, sənin zəng elədiyin telefonu kökündən çıxarıb atıblar.***
***Çox böyük hörmət eləyir. Belə də deyə bilərdi:***
***- Ay..., sənin zəng elədiyin telefonu kökündən çıxarıb atıblar.***
***Dəfələrlə zəng elədiyim və eyni cavabı aldığım, 0-822-5-55-77 mənim Ağdamdakı evimin telefon nömrəsidir.***
***Görəsən başqa bir ağdamlı, kəlbəcərli, laçınlı, şuşalı, qubadlılı, zəngilanlı, füzulili, cəbrayıllı, xankəndili, əsgəranlı, ağdərəli, hadrutlu, xocavəndli, martunili mənim kimi axmaqlıq edib heç olmasa bircə dəfə evlərinə zəng edibmi?***
***Yazını yazanda Ağdamdan bir dostum kompüter otağına girdi. Dedim:***
***- Bizim telefon cavab vermir, sizin nömrə neçədi, zəng eləyək.***
***Tutuldu. Bir alnını ovuşdurdu, sonra da dilxor-dilxor dedi:***
***- Evimizin telefon nömrəsi yadımdan çıxıb.***
***Nömrəmiz də yadımızdan çıxıb, evimiz də, torpağımız da, sabah adımız da yadımızdan çıxacaq. Bəs, yadımızda nə qalacaq? Alı bəyinki!?***

***1998***

***P.S.*** *İl 2020. Noyabr ayının sonu. Telefonumuzu çıxarıb atanların özlərini Ali Baş Komandan, Cənab Prezident İlham Əliyevin sərkərdəliyi ilə şəhid və qazilərimiz çıxarıb torpaqlarımızdan atdılar bayıra. Və mən Ağdamda, öz həyətimizdən dadının qaçıb-qaçmadığını öyrənmək üçün bir çimdik torpaq götürüb yeyəndən sonra gördüm torpağımızın dadını qaçıra bilməyiblər. Zəng etdim evimizə və dedim:*
*- Xanım, həyətimizdəyəm.*
*Mən o vaxt yuxarıdakı yazını yazanda ağlaya-ağlaya yazmışdım, həyətimizdən zəng edəndə də ağladım. Amma sevincdən ağladım. İndi Qarabağda bütün telefonlar işləyir. Laçının, Kəlbəcərin ən ucqar kəndlərində belə.*